

# İntiqam MEHDİZADƏ

Amansız ölüm qələm yoldaşımız İntiqam Mehdizadəni aramızdan apardı.

İntiqam Mehdizadə 1945-ci il fevralın 14-də İsmayıllı şəhərində anadan olub. Bu şəhərdə orta məktəbi bitirib, 1963-cü ildə Neft Daşlarında əmək fəaliyyətinə başlayıb. 1964-1968-ci illərdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində təhsil alıb. 1970-1973-cü illərdə "Azərbaycan gəncləri" qəzetində ədəbi işçi vəzifəsində çalışdıqdan sonra ömrünü Azərbaycan Teleradiosu ilə bağlayıb. Uzun illər burada redaktor, böyük redaktor, şöbə müdiri, baş redaktor vəzifələrində səmərəli fəaliyyət göstərib. "Gənclik və idman" redaksiyasına, "İncəsənət və radio teatrı" şöbələrinə rəhbərlik edib. Bir müddət Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin mətbuat xidmətinin rəhbəri olmuş, həm də ssenari yaradıcılığı, ekran dramaturgiyası, ədəbi iş fənlərindən dərs demişdir.

Ədəbi yaradıcılığa ötən əsrin 60-cı illərində başlamışdır. İlk qələm təcrübəsi - mənsur şeiri "Jurnalist" qəzetində 1966-cı ildə dərc edilmişdir. Dövri mətbuatda povest və hekayələri işıq üzü görmüşdür. "Təsəlli", "Hərənin öz dünyası", "Bulaq", "Novruz töhfələri", "Karvanın sarvanı" və s. kitabları maraqla qarşılanmışdır. Dövri mətbuatda dərc olunan məqalələri, xatirələri, araşdırma yazıları Azərbaycan mətbuat tarixinin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. "Lahıc" televiziya filminin ssenari müəllifidir. Ötən əsrin 70-ci illərindən efirə çıxan məşhur "Bulaq" verilişinin redaktoru olmuşdur. Onun qələmindən çıxan "Axtarış", "Dan yeri", "Duyğu", "Yeni üfüqlər", "Vaxt", "Mövqe", "Çərxi-fələk", "Sorğular, cavablar", "İncəsənət salonu", "Səslər muzeyi" kimi çoxsaylı radio verilişləri geniş dinləyici auditoriyası qazanıb. Yaradıcılıq fəaliyyəti Azərbaycan Jurnalistlər Birliyinin H.B.Zərdabi adına və "Qızıl qələm" mükafatları ilə dəyərləndirilib.

Tanınmış yazıçı-publisist, səmimi, təvazökar insan İntiqam Mehdizadənin işıqlı xatirəsi qələm yoldaşlarının qəlbində yaşayacaq.

**Allah rəhmət eləsin!**

***Azərbaycan Yazıçılar Birliyi***

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 11 iyun.- S. 17.**